***2020-ci il Azərbaycanın tarixinə qızıl hərflərlə yazıldı. Ölkəmiz ən böyük qələbələrdən birinə imza atdı – Vətən savaşını qazandı. Prezident İlham Əliyev postpandemiya və postmünaqişə dövrü üçün uzunmüddətli perspektivdə 5 Milli Prioritet üzrə 12 məqsəd müəyyənləşdirdi. Milli prioritetlər artan rəqabətli iqtisadiyyatın formalaşmasını, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət və müasir innovasiyalar məkanına çevrilmə, həmçinin işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası və "yaşıl artım" ölkəsi kimi məsələləri əhatə edir. Dəyişikliklərin fonunda ölkədə həqiqi lider, Prezident və Ali Baş Komandanın Azərbaycanı yeni hədəflərə doğru irəli apardığı bu gün hamılıqla təqdir olunur.***

# Dövlət qulluğu dövlət idarəçiliyi sistemində aparıcı yer tutur



Xalqımız kimi yerli və xarici ekspertlər də İlham Əliyevi yüksək siyasi iradə sərgiləyən novator Prezident kimi dəyərləndirirlər. Onun xarici siyasət sahəsində uğurları danılmazdır. Beynəlxalq arenada olduqca əmin və inandırıcıdır, əsl diplomatdır. Bunun nəticəsidir ki, Azərbaycan beynəlxalq aləmdə bir-birinin ardınca parlaq qələbələrə imza atır.

Son aylarda dünyanı diz üstə çökdürən COVID–19 pandemiyası ilə mübarizə prosesində də Azərbaycanın hadisələrin ən qorxulu inkişaf ssenarisini əngəlləməsi ölkənin yüksək səviyyədə idarə edildiyinin bariz göstəricisi idi. Bu, ilk növbədə, ölkə Prezidenti cənab İlham Əliyevin alovlanmağa başlayan prosesə çevik reaksiyası, qabaqlayıcı tədbirlərlə bağlı qərarların zamanında və kifayət qədər olması ilə şərtlənir. Heç şübhəsiz, bir sıra ekspertlərin də ümumi rəyinə görə, bu gün bəzi ölkələrdə baş verənlər gələcək nəsillər tərəfindən fəlakətə yol açan, uğursuz cəhdlərin örnəyi kimi öyrəniləcəkdir. Bu şəraitdə Azərbaycanda səmərəli idarəetmə, qərarların razılaşdırılması prosesinin sadələşdirilməsi sayəsində hazırkı böhran situasiyası "qızıl saat" tələsinə düşmədi. İctimaiyyət ölkə başçısı və Birinci vitse-prezidentin öz dilindən baş verənlərə adekvat reaksiyanın şahidi oldu. Əslində, bu, həm də Azərbaycanda bütün səviyyələrdə dövlət strukturlarının çevik, səmərəli, peşəkar fəaliyyətinin, dövlət qulluğu sisteminin düzgün qurulmasının nəticəsi idi.

Bəlli olduğu kimi, dövlət qulluğu dövlət idarəçiliyi sistemində aparıcı yer tutur və dövlət idarəçiliyinin səmərəliliyini təmin edən başlıca mexanizmdir. Bu, bütün dünyada qəbul edilən faktdır ki, istənilən dövlətin imici dövlət qulluğu sisteminin inkişaf prioritetlərinin düzgün müəyyənləşdirilməsindən birbaşa asılıdır. Birmənalı olaraq, bu sahədə dəyişikliklər yalnız dövlət qulluqçularının ölkənin tərəqqisi naminə xidmət göstərməyə və Prezident İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, xalqın qulluqçuları olmağa çalışdıqları təqdirdə uğurlu nəticələrə gətirib çıxarır. İstənilən zaman və məkanda dövlət qulluğu sisteminin gələcəyini müəyyən edən mənəvi meyar məhz budur. Azərbaycan Respublikasının ictimai həyatın bütün sahələrində qazandığı nailiyyətlərin kökündə də ölkə rəhbərliyinin bu reallığa əsaslanan inkişaf strategiyasına sadiq qalması dayanır.

Azərbaycanın son dövrlərdə iqtisadi, siyasi, sosial, humanitar və digər sahələrdə qazandığı nailiyyətlər ötən illər ərzində dövlət qulluqçularının potensialının artırılması istiqamətində mühüm işlərin nəticəsidir. Bu uğurlar dövlət qulluğuna inamı artırmaqla yanaşı, qarşıya yeni hədəflər qoyur. Bu gün səmərəli və peşəkar hökumətin yaradılması Azərbaycan Respublikasında dövlət qulluğu islahatlarının prioritet istiqamətlərindəndir. Qeyd etmək lazımdır ki, ölkədə dövlət qulluğunun optimallaşdırılması sahəsində əsaslı nailiyyətlər əldə edilib. Bununla yanaşı, cəmiyyətin inkişafı, şəraitin dəyişilməsi və müasir çağırışlar fonunda əhalinin həyat səviyyəsi keyfiyyətinin yüksəlməsi məqsədilə dövlət və vətəndaşların qarşılıqlı münasibətlərində dəyişikliklərin qiymətləndirilməsinə zərurət var. Bu səbəbdən inzibati islahatlar konsepsiyasının yaxın illər üçün başlıca məqsədi kimi dövlət qulluğunda keyfiyyətin daha da yüksəldilməsi nəzərdən keçirilməlidir.

Bu gün səmərəli və peşəkar hökumətin yaradılması dövlət qulluğu islahatlarının prioritet istiqamətlərindəndir. Qeyd etmək lazımdır ki, ölkədə dövlət qulluğunun optimallaşdırılması sahəsində əsaslı nailiyyətlər əldə edilib. Bununla yanaşı, cəmiyyətin inkişafı, şəraitin dəyişdirilməsi və müasir çağırışlar fonunda əhalinin həyat səviyyəsi keyfiyyətinin yüksəldilməsi məqsədilə dövlət və vətəndaşların qarşılıqlı münasibətlərində dəyişikliklərin qiymətləndirilməsinə zərurət var. Eyni zamanda, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"ndə Azərbaycanın innovativ, sosialyönümlü inkişaf tipinə keçidinin zəruriliyi qeyd olunur. Bu isə öz növbəsində, dövlət qulluğunun yeni formatda inkişafını şərtləndirir. İslahatların gerçəkləşdirilməsi yeni nəsil dövlət qulluqçularının formalaşdırılmasına, cəmiyyətdə kök salmış stereotiplərin aradan qaldırılmasına və dövlət qulluğunun müsbət imicinin təsdiqlənməsinə, həmçinin dövlət və vətəndaşlar arasında qarşılıqlı əlaqənin yeni formalarının kultivasiyasına yönəlik kompleks transformasiyanı nəzərdə tutur. Bu mənada texniki tərəqqi də mühüm rol oynayır, dövlət sektorunun idarə edilməsi sahəsində yeni yanaşma, mexanizm və prinsiplərin tətbiqi üçün güclü stimuldur.

Azərbaycanda dövlət qulluğu sistemində islahatların uğuru, ilk növbədə, dövlət sektorunda dəyişiklikləri və inkişafı şərtləndirən amillərin düzgün müəyyənləşdirilməsi ilə birbaşa bağlıdır. Ölkədə inzibati sistemdə və dövlət qulluğunda islahatlara aşağıdakı faktorlar da təsir göstərib: dövlət xərclərinin ixtisar edilməsi, siyasi qərarlar və onların reallaşdırılması səmərəliliyinin yüksəldilməsi, dövlət qulluğunun cəlbediciliyi və imicinin yüksəldilməsi, dövlət xidmətləri sisteminin təkmilləşdirilməsi və vətəndaşların, özəl sektorun iqtidara inamının möhkəmləndirilməsi istəyi. Eyni zamanda, xarici təcrübənin ümumiləşdirilib sistemləşdirilməsi və Azərbaycan şəraitinə uyğunlaşdırılması prosesində konkret təkliflər, elmi-praktik tövsiyələr verilib.

Respublikamızda ictimai-siyasi və sosial-iqtisadi sahələrdə qeydə alınan dəyişikliklər əhalinin tələbatlarının ödənilməsi və keyfiyyətli dövlət xidmətlərinin təklif olunmasına yönələn yeni dövlət idarəçiliyi sisteminin formalaşması ilə bağlıdır. Bu, dövlət idarəçiliyi metodologiyası və təcrübəsinə dəyişikliklərin əlavə edilməsi, bütövlükdə davamlı və kompleks inkişafın reallaşdırılması məqsədilə yeni vasitə və metodların axtarışını tələb edir. Azərbaycanda ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq, Prezident İlham Əliyevin rəhbərliyi altında gerçəkləşdirilən dövlət idarəçilik sistemi islahatları və dövlət qulluğunun modernləşdirilməsi proseslərinin əsasında məhz bu məqsəd dayanır.

Dövlət qulluğu islahatları ictimai sektorda islahatların tərkib hissəsidir. Birmənalı olaraq, ictimai sektorun inkişafı proqramları arasında dövlət qulluğu institutunun sistemli və struktur dəyişiklikləri xüsusi yerə malikdir. Belə ki, dövlət qulluqçuları islahatların təkcə obyekti deyil, həm də subyektləridir. Dövlət aparatı ictimai sektordakı bütün islahatlarda məsuldur və onun fəal iştirakı olmadan heç bir islahat reallaşdırıla bilməz. Ümumiyyətlə, dövlət qulluğu institutu dövlət idarəçiliyi sisteminin səmərəliliyinin fundamental elementidir.

Dövlət qulluğu institutunun təkmilləşdirilməsinin əsas istiqaməti vətəndaş cəmiyyətinin inkişafı və dövlətin qüdrətlənməsi naminə dövlət qulluğu keyfiyyəti və səmərəliliyinin köklü şəkildə yüksəldilməsidir. Bu məqsədlə Prezident İlham Əliyevin konturlarını dəqiq müəyyənləşdirdiyi siyasi xətt çərçivəsində rəqabətədavamlı, səmərəli dövlət institutları formalaşdırılıb. Dövlət qulluğu institutunun təkmilləşdirilməsi prosesi dövrü və mürəkkəbdir, həmçinin dövlət və ictimai sistemlərin inkişafı prosesi və nəticələrindən asılıdır. Sözsüz ki, ölkəmizdə dəqiq müəyyən edilmiş konsepsiyaya görə, dövlət qulluğunda önləyici inkişafa yönəlmiş proqramlar gerçəkləşdirilir. Dövlət qulluğu sisteminin inkişafı xarici ölkələrin müsbət təcrübəsinin ümumiləşdirilməsi və nəzərə alınmasına, cəmiyyətin müxtəlif təbəqələrinin, ekspert və dövlət qulluqçularının mövqeyinin göz önündə tutulmasına əsaslanıb.

Yeni addımlar sırasında Birinci vitse-prezident institutunun təsis edilməsi və bu yüksək vəzifəyə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təyin olunması da xüsusi əhəmiyyət kəsb edir. Məhz onun fəaliyyətinin nəticəsi olaraq, ölkəmizdə dövlət qulluğu təkcə hüquqi və təşkilati deyil, həm də publik və sosial institut imici qazana bilib. Bu gün dövlət aparatı qarşısında daha səmərəli, mobil və vətəndaşlara xidmət edən, daim təkmilləşən instituta çevrilmək kimi bir çağırış var. Bu institutun başlıca kapitalı insanlardır. Peşəkar insanların uzunmüddətli karyeralarını dövlət aparatı ilə bağlamaları üçün dövlət qulluğu həm daxildən, həm də xaricdən cəlbedici iş yerinə çevrilməlidir. Bunun üçün dövlət qulluğunda yeni yanaşmaların tətbiqi zəruri tələb kimi qarşıya qoyulub. Öncə dövlət qulluğunun cəlbedici işəgötürən kimi formalaşması üçün tədbirlər gerçəkləşdirilib, dövlət qulluqçularının sosial təminatları ilə bağlı bir çox məsələ həllini tapıb. Dövlət qulluğunun cəlbediciliyinin yüksəldilməsi məqsədilə dövlət aparatının təşkilati mədəniyyəti daha çevik, proses deyil, nəticəyə yönəlmiş və innovativ yanaşmalara açıq duruma gətirilib. Eyni zamanda, yeni çağırışlar fonunda dövlət qulluqçularının potensialı və bacarıqlarının inkişafı, həmçinin dövlət qulluğunda insan resurslarının idarə edilməsinə yönəlmiş texnologiyaların tətbiqinə başlanılıb.

Dövlət qulluğunun cəmiyyət tərəfindən qəbul edilməsi dövlətin səmərəliliyi, yəni dövlət aparatının cəmiyyəti maraqlandıran problemləri nə dərəcədə uğurla həll etməsi səviyyəsi ilə müəyyənləşir. Bu gün Azərbaycanda dövlət qulluğunun imici kifayət qədər yüksəkdir. Bunun başlıca səbəbi kimi dövlət aparatının cəmiyyətin maraqlarının ödənilməsinə xidmət edən və nəticəyə hesablanmış fəaliyyətinin təmin olunması göstərilə bilər. Azərbaycan dövlətinin diqqət mərkəzində ayrı-ayrı "müştərilərin" deyil, bütövlükdə, cəmiyyətin inkişafı dayanır. Beləliklə, dövlətin inkişafında mahiyyətcə sosial tərkib hissəsinin dominantlığı dövlət qulluğunun təkmilləşdirilməsi prosesində yeni şərtlərin ödənilməsinə ehtiyac yaradır. Bu şərtlər sırasında kadr siyasətinin xüsusi forması kimi könüllülüyün inkişafını nəzərdə tutan şəbəkə prinsipi, dövlət və vətəndaş cəmiyyəti arasında əməkdaşlığı və s. faktları göstərmək olar. Qeyd edə bilərik ki, yeni iş yerlərinin açılması ilə yanaşı, insan resurslarının şəxsi keyfiyyətlərinin və qabiliyyətlərinin inkişaf etdirilməsinə xüsusi önəm verilməsi, ölkədə yaradılan müasir idarəetmə modelinin mərkəzində Azərbaycan vətəndaşı və onun maraqlarının dayanması, şəffaf, demokratik, səmərəli və innovativ idarəetmə çərçivəsində dövlət qulluğunun "xalqa xidmət" konsepsiyasında həyata keçirilməsi, vətəndaşla dövlət qulluqçusu, məmur arasındakı münasibətlərdə yeni düşüncə tərzinə keçidə nail olunması, dövlət qulluqçularının fəaliyyət üslubunun dəyişməsi, vətəndaş məmnunluğunun əsas qiymətləndirmə meyarına çevrilməsi də görülən işlərin məntiqi yekunudur.

Dövlət qulluğunun cəmiyyətdə başlıca məqsədinin ölkənin davamlı inkişafı və vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi olan institut kimi qəbul edilməsi və real fəaliyyət göstərməsi prioritet hədəfdir. Bu qanunvericiliyin təkmilləşdirilməsi ilə yanaşı, kadr hazırlığı sistemində və siyasətində də dəyişikliklər zərurətini ortaya çıxarıb. Qeyd etmək yerinə düşər ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası da ölkənin inkişafının indiki mərhələsinə uyğun olaraq , dövlətin qarşısında duran mürəkkəb və çoxyönlü vəzifələrin öhdəsindən gələ biləcək kadrların yeni innovativ yanaşmaların tətbiqi ilə hazırlanması və fasiləsiz təhsili prosesində yaxından iştirak edir. Akademiya müasir şəraitdə effektiv dövlət kadr siyasətinin transformativ fəaliyyəti üçün güclü bir vasitəyə çevrilməsi işinə töhfələrini verir.

Şübhəsiz ki, çağdaş, peşəkar və müstəqil dövlət aparatının formalaşması və daim təkmilləşdirilməsi Azərbaycanın gələcək stabil, davamlı inkişafının həlledici faktorlarındandır, həmçinin qlobal çağırışlara cavabdır. Bu sahədə islahatların uğuruna strateji məqsəd və taktiki vəzifələrin dəqiq formalaşdırılması, ölkə rəhbərliyinin siyasi iradəsi və tələbkarlığının olması yol açıb. Beləliklə, dövlət qulluğu institutunun təkmilləşdirilməsi ölkənin hərtərəfli inkişaf dinamikasının yüksəlməsini şərtləndirib. Çünki onun səmərəli və innovativ fəaliyyəti dövlət siyasətinin strateji məqsədlərinin yerinə yetirilməsini hədəfləyən dövlət idarəçiliyi sisteminin davamlı inkişafına zəmin yaratdı. Bu üzdən dövlət qulluğunun cəmiyyətdə rolu da olduqca önəmlidir. Bu günün məmuru maliyyə baxımından şəffafdır və peşəkardır. Dövlət başçısının qarşıya qoyduğu başlıca strateji vəzifə dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsidir. Burada ən vacib tərkib hissə dövlət qulluqçularının peşəkar hazırlığıdır. Beləliklə, müasir inkişaf tendensiyaları yüksək səmərəyə malik dövlət aparatının yaradılması məqsədilə dövlət qulluğunun peşəkarlaşdırılması vəzifələrinə cavab verməlidir. Bu isə öz növbəsində, Azərbaycanın gələcək inkişaf istiqamətlərinin reallaşdırılması üçün zəmin olacaqdır.

İndi əsas amal müstəqil dövlətçiliyimizin üzərində bərqərar olduğu dayaqlardan biri olan dövlət qulluğu institutu və peşəkar dövlət qulluqçuları ordusunu təkmilləşdirməklə gələcəyə aparmaqdır. Şübhəsiz, bu, belə də olacaq. Çünki Azərbaycanın dövlət qulluqçuları Prezident İlham Əliyevin rəhbərliyi ilə sabaha – yeni uğurlara imza atmağa daha yaxındır. Bu gün ölkəmizdə gedən proseslər göstərir ki, Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi "böyük gələcək" siyasəti artıq öz bəhrələrini verir.

***Ziyafət HƏBİBOVA,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının şöbə müdiri, siyasi elmlər doktoru, professor***